# “Ulduz” jurnalının yeni sayı

**“Ulduz” jurnalının yanvar sayı filologiya üzrə fəlsəfə doktoru, dosent Elnarə Qaragözovanın “Postmodern poetika: “Əlahəzrət mətn” yazısıyla açılır.**




İlham Abbasov “Nobel mükafatı laureatları” rubrikasında ingilis ədəbiyyatının amerikalı nümayəndəsi Tomas Eliotun həyat və yaradıcılığını incələyir. “Yeni nəsil: tənqid” rubrikasında filologiya üzrə fələsfə doktoru Gülnar Səma Ramil Mərzilinin “Qadağan olunmuş şeirlər”ini təhlil edir.

“Tribuna”da Mirzə Fətəli Axundovun “Nəzm və nəsr haqqında” yazısı yer alıb. Filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənli “Çingiz Aytmatovun “Dəniz kənarıyla qaçan alabaş” əsərində mif və gerçəklik”dən yazır. “Tribuna”da akademik Kamal Talıbzadə “Firudin bəy Köçərlinin Abdulla Şaiqə məktubları”ndan söz açır.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Nərgiz İsmayılova ““Bir qış gecəsi əgər bir yolçu” və postmodernizm” yazısını təqdim edir. Cəlil Nağıyev ““Paris üçbucağı” romanı haqqında düşüncələr”ini oxucularla bölüşür.

Filologiya üzrə fəlsəfə doktoru Ülvi Babasoy “Yeni nəsil: tənqid”də “Alma”dan yazır. “Ulduz” jurnalı ilə “525-ci qəzet”in birgə layihəsi olan “Gənc yazarlar üçün nəzəriyyə dərsi”ndə “Əsərmi, mətnmi?” dərsiylə Məti Osmanoğludur.

Fəridə Rəhimli “Sevgisini, kədərini şeirə çevirən...” Əbülfət Mədətoğlu yaradıcılığından söhbət açır. “Dərgidə kitab”da “Lirik şeirlər”lə Mirzə Şəfi Vazehdir. Bunlar hamısı deyil, “Ulduz” jurnalının bu sayında azruladığınız xeyli maraqlı müsahibələr, yazılar var.

Xatırladaq ki, “Ulduz” jurnalının yanvar sayı “Yeni nəsil: tənqid” ””Ulduz” jurnalıyla C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının birgə layihəsidir.

***XQ***

Xalq qəzeti .- 2024.- 20 mart, № 62.- S.8.